**BAKI ŞƏHƏRİ ............RAYON MƏHKƏMƏSİNİN**
**HAKİMİ ...........................................................OĞLUNA**

XXXXX nömrəli mülki iş üzrə iddiaçılar ............oğlu və
................. oğlu tərəfindən
......................................................................

# V Ə S A T Ə T

İcraatınızda olan XXXXX nömrəli mülki iş üzrə ...............il tarixdə elektron məhkəmə sisteminə .................tarixli sərbəst auditor hesabatı (rəy) yüklənmişdir.

İddiaçıların xahişini nəzərə alaraq, həmin hesabatın (rəyin) əsaslandığı hesablamaların surəti iddiaçılara təqdim olunmuşdur.

Sözügedən hesablamalar iddiaçılar tərəfindən nəzərdən keçirilmiş və hesabatı (rəyi) hazırlayan sərbəst auditor ................................oğlunun və Dövlət Əmək Müfəttişliyi Xidmətinin Bakı şəhər İdarəsinin əməkdaşı ........................................oğlunun məhkəmə iclasına dəvət edilməsi məqsədi ilə məhkəmə kollegiyasına vəsatətlə müraciət etmək zərurəti yaranmışdır. Bu zərurəti aşağıdakılarla izah edə bilərik:

1. Auditorun hesabatında (rəyində) və onun əsasını təşkil edən hesablamalarda bir-sıra hüquqi və riyazi səhvlər var ki, bunlarla bağlı iddiaçıların sualları yaranmışdır və bu suallara cavablar yalnız rəyi tərtib edən auditordan alına bilər. Rəyə əlavə olunan hesablamalardan hesablama metodikası və qaydası aydın deyil. Bundan başqa auditor öz hesabatına (rəyinə) tanış olduğu və yoxladığı sənədlərin siyahısın əlavə etməmiş və bu günə kimi aydın deyil ki, auditor hansı sənədləri nəzərdə keçirərək, məlum rəyi tərtib etmişdir.
2. Auditor sözügedən rəyində göstərmişdir ki (Rəyin 4 cü səh.7-ci abzasında), ”.... aparılan mühasibatlıq ekspertizasında Dövlət Əmək Müfəttişliyi Xidmətinin Bakı şəhər İdarəsinin əməkdaşı ...............oğlu iştirak etdi, ekspertiza təhqiqatı zamanı ortaya çıxan sualları şifahi olaraq cavablandırdı, ...., lazım olduğu təqdirdə məhkəmə araşdırmasında iştirak edəcəyini bildirdi.” DƏMX əməkdaşının auditorun suallarını şifahi cavablandırması əmək müfəttişliyinin rəyinin nədən ibarət olması və ümumiyyətlə nə dərəcədə bu iş üzrə sənədlərlə tanış olduğu barədə xeyli suallar yaradır. Nəzərə alaraq ki, DƏMX əməkdaşı məhkəmə araşdırması zamanı iştirak edə biləcəyini bildirmiş və bu haqda auditor məhkəməyə bəyan etmişdir, DƏMX Bakı şəhər İdarəsinin əməkdaşının məhkəmə iclasına çağırılmasında maneələr olmamalıdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq və MPM-nin 47.2-ci maddəsini rəhbər tutaraq,

**Xahiş edirəm:**

XXXXX nömrəli mülki iş üzrə ....................il tarixli Auditorlar Palatasında .......................nömrəsi ilə qeydə alınmış Sərbəst auditor hesabatını (rəyini) tərtib edən sərbəst auditor ........................oğlunun və Dövlət Əmək Müfəttişliyi Xidmətinin Bakı şəhər İdarəsinin əməkdaşı ..............................oğlunun məhkəmə iclasına çağırılmasını təmin edəsiniz.

İmza: ___________________......................................oğlu /İddiaçı

İmza: ___________________ ...................................... oğlu/İddiaçı

Tarix: _______________________